

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 90 (21.242)

8 may 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Mayın 7-də Bakıda Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni inzibati binanın açılışında iştirak ediblər.

Dövlətimizin başçısı inzibati binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Böyük Vətən müharibəsində qələbənin 70 illiyi münasibətilə veteranları təbrik etdilər, ən xoş arzularını bildirdilər və onların ürək sözlərini dinlədilər.

Veteranlar ulu öndər Heydər Əliyev ilə görüşlərini dərin ehtiram hissi ilə xatırladılar.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binası ilə tanış oldular.

Bina ilə tanışlıqdan sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva veteranlar ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Sonda xatirə şəkli çəkdirildi.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində təqdimat mərasimi olmuşdur





Mayın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikasının 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeninin, “Vətən uğrunda”, “Hərbi xidmətlərə görə”, “Dövlət qulluğunda fərqlənməyə görə” və “Tərəqqi” medallarının, “Vergi orqanlarında xidmətdə fərqlənməyə görə” 1-ci, 2-ci və 3-cü dərəcəli medallarının, Azərbaycan Respublikası Prezidentinin mükafatlarının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının təqdimat mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları təbrik edərək demişdir: “Bu gün sizin həyatınızda əlamətdar gündür. Dövlətimizin ali mükafatlarına layiq görülməyiniz ölkəmizdə ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsi, dahi şəxsiyyətin ideyalarına sədaqətin bəhrəsidir”.

Ali Məclisin Sədri ulu öndərin yolunun davam etdirilməsi sahəsindəki səmərəli fəaliyyətlərinə görə təltif olunanlara təşəkkürünü bildirmiş, onlara gələcək işlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri orden və medalların, Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini, Azərbaycan Respublikası Prezidentinin mükafatlarını təqdim etmişdir.

Təltif olunanlardan Zaur Bağırov, Əli Mahmudov, Naib İbrahimov, Yaşar Vəliyev, Beytulla Fərəcov, Nağdəli Babayev, Asəf Məmmədov, Abbas Bağırov, Musa Əzizov, Səməd Canbaxşiyev və Əfsər Novruzov minnətdarlıq edərək demişlər ki, ölkəmizdə, o cümlədən muxtar respublikada bütün sahələrdə dinamik inkişaf təmin edilmişdir. Azərbaycanda sabitlik, davamlı sosial-iqtisadi inkişaf, xalq-dövlət birliyi vardır. Aparılan genişmiqyaslı tikinti-quruculuq işləri, ölkəmizin inkişafına və əhalinin rahat yaşayışına xidmət edən kompleks tədbirlər hər bir sakini sevindirir, onları doğma torpağa daha sıx tellərlə bağlayır. Bu inkişafda pay sahibi olmaq isə ikiqat qürur və fəxrdir.

Təltif olunanlar dövlətimizin ali mükafatlarına layiq görülmələrini ölkəmizdə insan əməyinə verilən qiymətin daha bir ifadəsi kimi dəyərləndirmiş, bundan sonrakı fəaliyyətlərində də ulu öndərin siyasi xəttinə sadiq qalacaqlarını bildirmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Milli istiqlalın banisi

***Naxçıvan Dövlət Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə keçirilən ənənəvi silsilə tədbirlər “Heydər Əliyev – 92: milli istiqlalın ümid və güvənc yeri” adlı elmi-praktik konfransla yekunlaşıb. Əvvəlcə ümummilli liderə həsr olunmuş, universitetin müəllim və tələbələrinin əl işlərindən ibarət rəsm sərgisinə baxış olub.***

Konfransı giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb. Bildirilib ki, ulu öndər Heydər Əliyev bütün həyatını, siyasi fəaliyyətini xalqın firavan gələcəyinə həsr edib. Məhz onun müdrik, uzaqgörən siyasəti nəticəsində totalitar sovet rejimi dövründə Azərbaycanın gələcək müstəqilliyi üçün siyasi-iqtisadi zəmin yaradılıb. XX əsrin sonlarında isə ulu öndərin liderlik missiyası sayəsində Azərbaycan xarici geosiyasi müdaxilələrdən, daxili münaqişə və parçalanmalardan xilas olub. Azərbaycan öz müstəqilliyini qoruyub saxlayıb, dünyada tanınıb, inkişaf edib, çiçəklənib.

Yeni Azərbaycan Partiyası universitet şəhərciyi ərazi ilk təşkilatının sədri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Kamal Camalov “Dahi rəhbər Heydər Əliyev Azərbaycançılıq məfkurəsinin himayədarıdır” mövzusunda məruzə edərək ümummilli liderin yüksək milli mənəviyyat uğrunda mübarizəsindən, mental dəyərlərin yaşadılmasındakı rolundan danışıb. Qeyd olunub ki, Azərbaycançılıq məfkurəsinin yaradıcısı olan dahi rəhbərin Vətən sevgisi gələcək nəsillər üçün əsl vətənpərvərlik örnəyidir. Elm və təhsil, ədəbiyyat və incəsənət, bir sözlə, mənəviyyatımızın bütün sahələri ulu öndərimizin çox dəyərli ideyalarından bəhrələnib. Milyonlarla insanı böyük ideyalar ətrafında birləşdirən ümummilli lider Heydər Əliyevin müqəddəs məramı vahid, müstəqil, inkişaf etmiş Azərbaycan olub!

Konfransda Yeni Azərbaycan Partiyasına üzv qəbul olunmuş bir qrup tələbəyə üzvlük vəsiqələri təqdim edilib.

Ümummilli lider haqqında sənədli filmin nümayişindən sonra İncəsənət fakültəsinin hazırladığı konsert proqramı təqdim edilib. Xalq çalğı alətləri ansamblının müşayiəti ilə universitetin müəllimi Zeynəb Yusifovanın, tələbələrdən Məhərrəm Quliyevin, Pünhanə Nəcəflinin, Bəhruz Quliyevin və universitetin vokal qrupunun ifa etdikləri mahnılar, Çinarə Bədəlovanın və “Yallı” qrupunun rəqsləri, ümummilli liderə həsr olunmuş şeirlərin bədii qiraəti alqışlarla qarşılanıb.

*Dünən Naxçıvan Müəllimlər İnstitutunda “Heydər Əliyev lektoriyası”nın növbəti məşğələsi keçirilib.*

## “Heydər Əliyev lektoriyası”nın növbəti məşğələsi keçirilib



“Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu” mövzusunda keçirilən məşğələni institutun tədris işləri üzrə prorektoru, professor Akif İmanlı açaraq ulu öndərimizin Azərbaycanın müstəqilliyi naminə gördüyü işlərdən, misilsiz xidmətlərindən danışıb. Qeyd edilib ki, çoxəsrlik dövlətçilik ənənələrinə malik olan xalqımızın tarixində ümummilli liderimizin şəxsiyyəti, Onun siyasi və idarəçilik fəaliyyəti müstəsna yer tutur. Xalqımız tarixboyu arzuladığı milli dövlətçilik amallarını məhz ulu öndərimiz sayəsində gerçəkləşdirərək dayanıqlı müstəqil Azərbaycan dövlətini qura bilib. Müasir Azərbaycan tarixinin 30 ildən artıq bir dövründə respublikamıza rəhbərlik etmiş dahi şəxsiyyət Heydər Əliyev dövlətçilik salnaməsində elə bir irs yaradıb ki, onun öyrənilməsinə, təbliğinə və tətbiqinə hələ uzun illər böyük ehtiyac olacaq və bu irs heç zaman tükənməyəcək.

Tədbirdə institutun dosenti Ələkbər Cabbarlı “Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu” mövzusunda məruzə edərək bildirib ki, XX əsrin sonlarında ulu öndər Heydər Əliyevin yaratdığı milli dövlətçilik dahi rəhbərin bizə bəxş etdiyi milli sərvətdir və onun dəyərini dərk etməliyik. Həm Azərbaycan tarixində, həm də xalqın yaddaşında görkəmli dövlət xadimi Heydər Əliyev müstəqil və suveren dövlətin simvolu, xarizmatik siyasət dahisi, cəsur insan və ən böyük vətəndaş kimi qalıb və qalacaq. O, Azərbaycanın ən yeni tarixində bütöv bir epoxanı özündə təcəssüm etdirən, müstəqil dövlətin siyasi, iqtisadi, hüquqi, sosial-mədəni, elmi əsaslarını yaradan, onların ardıcıl inkişafını təmin edən siyasi kursun və milli inkişaf strategiyasının müəllifidir. Bu gün ölkəmiz haqda danışanda fəxr edə biləcəyimiz, qürurla öyünəcəyimiz çox uğurlarımız var. Onların istisna olmadan hamısı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycanda elə bir sahə yoxdur ki, onun inkişafında dahi rəhbərimizin zəhməti olmasın. Ulu öndərimiz dövlət müstəqilliyimizi əbədi və dönməz etdi, ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi; atəşkəsə nail oldu, ordu yaratdı, iqtisadiyyatı dirçəltdi, Azərbaycanı tənəzzül etmiş dövlətdən inkişaf edən ölkəyə çevirdi.

**Xəbərlər şöbəsi**

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş tədbirlər keçirilir



*Yeni Azərbaycan Partiyası (YAP) Culfa Rayon Təşkilatı xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar tədbir keçirib. Tədbiri YAP Culfa Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov açaraq çıxış edib.*

Bildirilib ki, ulu öndərin ölkəmizə rəhbərliyinin birinci dövründə doğma Azərbaycanımız bütün sahələrdə inkişaf və tərəqqi edib, xüsusilə sosial, iqtisadi, elmi-mədəni sahələrdə böyük nailiyyətlər əldə olunub.

"Ümummilli lider Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə Azərbaycanın dövlət müstəqilliyinin əsası qoyuldu", – deyən təşkilat sədri vurğulayıb ki, müstəqilliyini bərpa etmiş ölkəmiz bu əvəzsiz nemətdən məhrum olmaq təhlükəsi ilə üz-üzə qalanda xalqımızın nüfuzlu ziyalıları ölkəmizi bu bəladan xilas edəcək şəxsiyyətin rəhbərliyi ilə yeni bir siyasi qüvvənin – Yeni Azərbaycan Partiyasının yaranması zərurəti ilə əlaqədar ulu öndərə üz tutdular. 1992-ci il noyabrın 5-də dahi rəhbər Heydər Əliyev partiyanın təşkilat komitəsinin, noyabrın 21-də isə Naxçıvan şəhərində keçirilən təsis konfransında yekdilliklə Yeni Azərbaycan Partiyasının Sədri seçildi.

1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə görkəmli dövlət xadimi Heydər Əliyev yenidən ölkəmizdə siyasi hakimiyyətə qayıtdı. Bundan sonra ölkədə siyasi sabitlik və əmin-amanlıq yarandı, Azərbaycan sürətli inkişaf yoluna qədəm qoydu.

1994-cü ilin sentyabrında dünyanın iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlı ilk neft kontraktları imzalandı; 1995-ci il noyabr ayının 12-də müstəqil respublikamızın ilk Konstitusiyası qəbul olundu; müstəqillik tariximizdə ilk parlament seçkiləri keçirildi; ölkəmizdə tarixi islahatlar keçirilməyə başlandı. Torpaq və aqrar islahatlar haqqında, özəlləşdirmə, sahibkarlığın inkişafı, vergi, maliyyə-bank sisteminin yenidən qurulması, ticarətin liberallaşdırılması, əhalinin sosial müdafiəsinin təmin edilməsi üçün mühüm qanunvericilik aktları qəbul edildi. Gənc, müstəqil Azərbaycanın beynəlxalq nüfuzu artmağa başladı.

Vurğulanıb ki, bu gün əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş daxili və xarici siyasət, quruculuq tədbirləri, regionların sosial-iqtisadi inkişafı ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Azərbaycan bu gün iqtisadi potensialı baxımından regionun lider ölkəsidir.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev ideyalarının sədaqətlə həyata keçirilməsi, muxtar respublika iqtisadiyyatının yüksələn xətlə inkişafı hamımızda qürur hissi doğurur və bütün bu nailiyyətlər ulu öndərimiz Heydər Əliyev ideyalarının təntənəsi kimi qiymətləndirilir.

Sonra çıxışlar olub.

Sonda məktəblilərin ifasında ulu öndərə həsr olunmuş şeirlər səsləndirilib, partiya sıralarına yeni qəbul olunanlara üzvlük vəsiqələri təqdim edilib.

* * *

"Ulu öndərimiz Heydər Əliyev bəşər tarixində siyasət olimpinə yüksələn nəhəng dövlət xadimlərindən biridir və onun həyat yolu doğma Vətənə sədaqət nümunəsidir. Dünyanın ən tanınmış siyasətçiləri belə, bu böyük zəka sahibinin misilsiz fəaliyyətini, dəyərli irsini artıq çoxdan nəsillərə örnək kimi dəyərləndiriblər". Bu fikirlər Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə keçirilən konfransda səsləndirilib.



Təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov məruzə edərək bildirib ki, Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, müstəqilliyin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması məhz dahi şəxsiyyət Heydər Əliyevin titanik fəaliyyəti sayəsində mümkün olub.

Vurğulanıb ki, ümummilli liderimiz Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə muxtar respublikanı işğaldan xilas etməklə Naxçıvana yeni bir həyat bəxş edib. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvandan başlanan müstəqillik hərəkatı bütün Azərbaycan siyasi mühitində aparıcı siyasi qüvvəyə çevrilməklə milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxarıb.

Sonra təşkilatın Qadınlar Şurasının sədri Vüsalə Əliyeva, Sədərək kənd 1 nömrəli tam orta məktəb ərazi ilk təşkilatının sədri Gülnarə Hüseynova, Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Sədərək rayon təşkilatının sədri Teymur Quliyev, Yeni Azərbaycan Partiyasının üzvü Bulud Bağırlı çıxış ediblər. Çıxışlarda bildirilib ki, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi kursunu dönmədən, ardıcıl və layiqli şəkildə həyata keçirir. Bu siyasi kurs Azərbaycanın siyasi və iqtisadi qüdrətinin artmasına və onun beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə səbəb olub. Ölkəmizdə siyasi sabitliyin mövcud olması və iqtisadi inkişafın Heydər Əliyev modelinin uğurla həyata keçirilməsi respublikamızın sosial-iqtisadi inkişafına daha da sürətləndirib.

Azərbaycanımızın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan da sürətli inkişaf yolundadır. Muxtar respublikamızda Heydər Əliyev yolunun bütün sahələrdə böyük uğurla davam etdirilməsi nəticəsində diyarımız gündən-günə çiçəklənir, həyata keçirilən nəhəng quruculuq tədbirləri Naxçıvanın hərtərəfli inkişafını təmin edir.

Tədbirdə bir qrup gənc partiya sıralarına üzv qəbul edilib, bir qrup gəncə isə üzvlük vəsiqələri təqdim olunub.

*Mayın 7-də Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi "Heydər Əliyev dühası əbədidir" mövzusunda elmi-nəzəri konfrans keçirib.*

Tədbiri giriş sözü ilə Mədəniyyət və Turizm naziri Sarvan İbrahimov açaraq qeyd edib ki, ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə ölkəmizin ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş, inkişaf baş verdi. Qüdrətli zəkaya, qətiyyətli iradəyə sahib görkəmli dövlət xadimi Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilib, xalqın pənahı olub.

Nazir qeyd edib ki, xalqımız bu gün olduğu kimi, gələcəkdə də dahi rəhbərin zəngin dövlətçilik təcrübəsindən bəhrələnəcək, Heydər Əliyev ideyaları ölkəmizi daha xoş sabahlara aparacaqdır. Bu mənada ulu öndərin dühası əbədidir.

Sonra Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Nizami Rəhimov "Dahi şəxsiyyət Heydər Əliyev və muzeylər" mövzusunda çıxış edib. Bildirilib ki, xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün zamanlarda muzeylərimizin də inkişafında və muzeylər şəbəkəsinin yaradılmasında böyük uğurlar əldə edilib. Belə ki, tarix-diyarşünaslıq muzeylərinin, Azərbaycanın görkəmli şəxsiyyətlərinin ev-muzeylərinin, xalça muzeylərinin, qalereyaların yaradılması ulu öndərimizin ölkəmizdə muzey işinin genişləndirilməsinə və təkmilləşdirilməsinə ən dəyərli töhfələrdəndir.

M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova "Ulu öndər Heydər Əliyev və kitabxanalar" mövzusundakı çıxışında görkəmli dövlət xadiminin kitabxanalara, bu sahənin inkişafına həmişə xüsusi önəm verməsindən, diqqət və qayğı göstərməsindən söhbət açıb. Vurğulanıb ki, kitabxanaların insanların həyatındakı rolunu yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə şəhər və kəndlərimizdə 200-dən çox kitabxana yaradılıb.

Sonda "Azərbaycan mədəniyyətinin hamisi" adlı sənədli film nümayiş etdirilib, konfrans iştirakçıları muzeyin ekspozisiyası ilə tanış olublar.

* * *



Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə keçirilmiş tədbiri şuranın sədri Sucaxan Novruzov açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, ulu öndər Heydər Əliyev tarixi min illərlə hesablanan xalqımızın zəfər salnaməsinə şanlı səhifələr yazıb, Azərbaycanın rəmzinə çevrilib. Bu gün qədirbilən xalqımızın qəlbində müstəqil Azərbaycanın memarı ulu öndər Heydər Əliyevin ölməz və işıqlı obrazı yaşayır.

Vurğulanıb ki, görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizi keçmiş Sovetlər Birliyinin geridə qalmış aqrar xammal ölkəsindən ittifaq dövlətinin inkişaf etmiş respublikaları sırasına çıxarıb. Ümummilli liderimiz mərkəzi hakimiyyət tərəfindən göstərilən bütün təzyiqləri öz nüfuzu, dövlətçilik bacarığı ilə dəf edərək həyatımızın bütün sahələrində böyük uğurlar qazanılmasına nail olub. Müstəqillik dövründə də ulu öndər Heydər Əliyev doğma Vətəninin qüdrətlənməsi naminə cahanşümul işlər görüb, güclü bir dövlət yaradıb. Xalqın həyat səviyyəsinin yüksəldilməsi, əhalinin məşğulluğunun təmin edilməsi, yeni emal və istehsal müəssisələrinin yaradılması, müasir texnologiyaların tətbiqinə ciddi önəm verilməsi və digər istiqamətlərdə həyata keçirilən tədbirlərin nəticəsi olaraq, ölkəmiz yeni inkişaf müstəvisinə qədəm qoyub.

Şura sədri əlavə edib ki, bu gün Azərbaycan regionda lider dövlətdir. Bunun təməlində isə ümummilli liderimiz Heydər Əliyevin uzun illər üçün hesablanmış inkişaf strategiyası dayanır.

Yığıncaqda şura əməkdaşlarından Yəmən Rzayevanın, Ceyhun Məmmədovun, Rövnəq Xəlilovun, Akif Mahmudovun və başqalarının çıxışları olub.

Çıxışlarda qeyd olunub ki, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət bu gün ölkəmizin ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda uğurla davam etdirilir. Qədim diyarımız dahi rəhbərin siyasətinin uğurla həyata keçirilməsi nəticəsində tarixinin ən böyük inkişaf dövrünü yaşayır.

* * *

Mayın 7-də Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə muxtar respublika məktəbliləri arasında aprel ayından start verilən şeir müsabiqəsinin yekun mərhələsi olub.

Müsabiqə başlanmazdan əvvəl Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Piri Nağıyev çıxış edərək bildirib ki, Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin qiymətli nəzəri irsində və möhtəşəm fəaliyyətində təhsil məsələləri xüsusi yer tutur. Ulu öndərimiz həm təhsilin məzmunu, mahiyyəti, səmərəli təşkili, müəllim əməyinin şərəfi, şagirdlərin və tələbələrin vəzifələri barədə dəyərli fikirlər söyləyib, həm də Azərbaycan təhsilinin hərtərəfli inkişafı qayğısına qalıb, illərboyu bu sahədə böyük inkişafa rəvac verən sistemli tədbirlər həyata keçirib. Qeyd olunub ki, ulu öndərin ideyaları muxtar respublikada dönmədən və ardıcıllıqla həyata keçirilir. Bu gün muxtar respublikanın ən ucqar dağ kəndlərində belə, müasir məktəb binaları tikilib müəllim və şagirdlərin istifadəsinə verilir. Bu istiqamətdə görülən tədbirlər gənc nəslin mükəmməl təhsil almasına şərait yaradır.

Sonra müsabiqəyə start verilib. Şəhər və rayon turları qaliblərinin şeirləri yenidən münsiflərə təqdim olunub. Qeyd edək ki, müsabiqənin yekun turunda rayon və şəhər turlarında qalib gələn 28 şagird iştirak edib.

Müsabiqənin nəticələrinə görə, 2 nəfər birinci, 5 nəfər ikinci, 6 nəfər üçüncü olub.

Yekun müsabiqədə iştirak edən 28 nəfər şagird Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin diplom və hədiyyələri ilə mükafatlandırılıb.

Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq və Estetik Tərbiyə mərkəzlərinin mahnı və rəqs qruplarının çıxışları, solo ifalar alqışlarla qarşılanıb.

# Ordubadda növbəti humanitar aksiya

*Ölkəmizin paytaxtı Bakı şəhərindən müxtəlif ixtisaslar üzrə həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi, aztəminatlı ailələr üçün nəzərdə tutulmuş xüsusi sağlamlıq layihələrinin intensiv qaydada icra olunması davam etdirilir.*

Ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə Respublika Klinik Xəstəxanasının yüksəkixtisaslı həkim heyəti may ayının 7-dən Ordubad rayonunda növbəti humanitar aksiyaya start verib. Ordubad Rayon Mərkəzi Xəstəxanasında təşkil olunan aksiyada Klinik Xəstəxananın baş həkimi Telman İbadovun rəhbərliyi ilə 20 yüksəkixtisaslı həkim və orta tibb işçisi iştirak edir. Onlardan travmatoloq Natiq Əliyev, cərrah Pənah Hüseynov, anestezioloq Azər Əhmədov, proktoloq Məsmə Həsənova, kardioloq Gülşən Ağamirova, mama-ginekoloq Kənarə Abdullayeva, otolarinqoloq Sahib Səmədov, nevropatoloq Mehparə Qədimova, terapevt Fəxrəddin Cəfərov və başqalarının səyi ilə aksiyanın ilk günü 560 pasiyent profilaktik tibbi müayinə ilə əhatə edilib, cərrahi müdaxiləyə ehtiyacı olan 18 xəstə üzərində LOR, göz və ümumi cərrahi əməliyyatlar aparılıb.

Aksiya zamanı pasiyentlər həmçinin hematoloji, uroloji, nefroloji, praktoloji, oftalmoloji və digər tibbi xidmətlərlə də əhatə olunublar. Qeyd edək ki, xəstəxanaya min nəfərdən çox pasiyent müayinə olunmaq üçün müraciət edib. Onların hamısını tibbi xidmətlə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi lazımi şərait yaradıb. Ordubad Rayon Mərkəzi Xəstəxanasının tibbi heyəti də Bakıdan gələn həkimlərlə birgə tibbi xidmət göstərir.

Aksiyada iştirak edən Ordubad şəhər sakini Yaşar Haşımov bildirdi ki, övladı Muxtarın cərrahi müdaxiləyə ehtiyacı var idi. Rayon Mərkəzi Xəstəxanasında belə bir aksiya keçirilməsi bu ehtiyacın ödənilməsinə imkan verib. Mayın 7-də övladı üzərində cərrahi əməliyyat aparılıb. Palataya yerləşdirilən xəstə yüksək həkim nəzarətindədir. Valideyn övladının yenidən öz sağlamlığına qovuşduğu bu günü heç vaxt unutmayacağını bildirərək əməyi olanlara minnətdarlıq etdi.

Azadkənd sakini Ceyhunə Rzayeva və başqaları da onlara göstərilən bu xidməti dövlətimizin əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirdiyi tədbirlərin tərkib hissəsi kimi dəyərləndirərək minnətdarlıqlarını bildirdilər.

Xatırladaq ki, Respublika Klinik Xəstəxanasının ayrı-ayrı ixtisaslar üzrə yüksəkixtisaslı həkim heyəti ötən il dekabr ayının 24-dən 27-dək Ordubad, bu ilin yanvar ayında isə Şərur Rayon Mərkəzi xəstəxanalarında da humanitar aksiya keçirib, 4238 nəfər tibbi müayinə edilib, 121 nəfər əməliyyat olunub.

Aksiya 3 gün davam edəcək.

**Xəbərlər şöbəsi**

*Şuşanın işğalından 23 il ötür. 1992-ci il mayın 8-də Ermənistan hərbi birləşmələri tərəfindən işğal edilən Şuşada həmin dövrdə 25 min nəfərədək əhali yaşayırdı.*

# Şuşanın işğalından 23 il ötür

## Biz o yurda qayıdacağıq

Mayın 8-nə keçən gecə təcavüzkar erməni silahlı birləşmələri keçmiş sovet ordusunun 366-cı alayının 40 zirehli texnikasının bilavasitə iştirakı və köməyi ilə Şuşa şəhərini işğal etmək planını həyata keçirməyə başlayıb. Səhər saat 6-dək şəhər intensiv artilleriya atəşinə məruz qalıb. Bundan sonra düşmənin minə yaxın əsgəri üç tərəfdən Şuşaya hücum edib. Nəticədə, dağlar gözəli, Azərbaycanın musiqi beşiyi olan qədim şəhərimiz xain düşmənin əlinə keçib.

Şuşa Qarabağ silsiləsində, dəniz səviyyəsindən 1400-1500 metr yüksəkliyə malik yayla ərazidə yerləşən şəhərdir. Dağ-iqlim kurortudur. Müxtəlif növ tikinti materialı yataqları və mineral su bulaqları (Turşsu və Şırlan) var.

Əsrarəngiz Şuşa şəhəri Pənahəli xan Cavanşirin adı ilə bağlıdır. 1747-ci ildə Nadir şah öldürüldükdən sonra Pənahəli bəy xan elan edilir və Qarabağ xanlığını düşmən hücumlarından qorumaq məqsədilə alınmaz bir qala tikdirməyi qərara alır. 1750-ci ildə Qarabağın səfalı guşəsində, üç tərəfdən sıldırım qayalarla əhatə olunmuş dağ yaylasında yeni qalanın bünövrəsini qoyur. Pənahəli xan hasarın içərisində yeni binalar və özü üçün saray tikdirir. Yerli əhali yeni salınmış şəhəri Pənahəli xanın şərəfinə "Pənahabad" adlandırır. Şiş uclu dağlar əhatəsində yerləşən Pənahabad əvvəllər "Şişə", sonralar isə "Şuşa" adlandırılıb.

Pənahəli xanın ölümündən sonra Qarabağın hakimi olan İbrahimxəlil xan öz dövrünün bacarıqlı dövlət xadimlərindən biri idi. Onun dövründə Qarabağ xanlığı daha da güclənir və inkişaf edir.

Pənahəli xan və İbrahimxəlil xan Qarabağ xanlığının paytaxtı Şuşa şəhərini qədim və orta əsrlərin şəhərsalma nümunələri əsasında yüksək səviyyədə bina ediblər. Şəhər 17 məhəlləyə bölünüb. Bu məhəllələr Böyük qurdlar, Kiçik qurdlar, Seyidli, Culfalar, Təzə məhəllə, Hamam qabağı, Dəmirçilər, Quyuluq, Xoca Əmircan, Mamayı, Saatlı, Köçərli, Mərdinli, Çöl qala, Hacı Yusifli, Çuxur məhəllə, Ağa dədəlilərdir.

Ümumiyyətlə, Şuşanın bir şəhər kimi formalaşmasını şərti olaraq üç mərhələyə bölmək olar: birinci mərhələ qeyri-sabit şəraitdə – 1763-cü ilə qədər davam edib, bu dövrdə tikinti işləri bir qədər tələsik aparılıb. Həmin vaxt şəhərin "Çuxur" adlı şərq hissəsində 9 məhəllə salınıb. İbrahimxəlil xanın hakimiyyəti illərinə təsadüf edən ikinci mərhələdə Şuşada aparılan tikinti işləri daha keyfiyyətli və möhtəşəm olub. Bu dövrdə şəhərdə yaşayış məhəllələrinin sayı 17-yə çatıb. XIX əsri əhatə edən üçüncü mərhələdə şəhərin dağlıq qərb hissəsində yeni 12 məhəllə salınıb və bununla Şuşanın formalaşması başa çatıb.

Şuşanın qərb tərəfi dəniz səviyyəsindən, təxminən, 1800 metr, şərq tərəfi isə 1400 metr yüksəklikdədir. Şəhərin cənub tərəfi nisbətən hündür və horizontal düzənlikdir. Bura "Cıdır düzü" adlanır. Şuşanın yerləşdiyi sahə isə 350 hektardır. Şəhərə ancaq bir nəqliyyat yolu var idi: Ağdam-Əskəran-Xocalı-Xanbağı-Ağa körpüsü-Şuşa yolu. Bu yol şəhərin mərkəzinə qədər uzanır.

Gündən-günə inkişaf edən, iqtisadi cəhətdən güclənən Qarabağ xanlığı dəfələrlə İranın və qonşu xanlıqların hücumlarına məruz qalıb. İranda hakimiyyəti ələ alan Ağa Məhəmməd şah Qacar 1795-ci il iyunun sonunda Qarabağa hücum edir. İbrahimxəlil xanın 15 min nəfər seçmə qoşunu Ağa Məhəmməd şah Qacara qarşı qəhrəmanlıqla mübarizə aparırdı. Ağa Məhəmməd şah Qacar Şuşa qalasını 33 gün mühasirədə saxlasa da, heç bir müvəffəqiyyət qazana bilməyib.



Ağa Məhəmməd şah Qacar 1797-ci ilin yazında ikinci dəfə çoxsaylı ordu ilə Arazı keçib Şuşaya yaxınlaşır. Bəzi şəhər əyanlarının xəyanəti üzündən qısa mühasirədən sonra Şuşa təslim olur. Ancaq şəhərə girən Ağa Məhəmməd şah Qacarın hakimiyyəti bir gün davam edir. Qacar yaxın pişxidmətçiləri tərəfindən öldürülür. Şuşaya qayıdan İbrahimxəlil xan İranla münasibətləri düzəltmək məqsədilə Qacarın nəşini təmtəraqla İrana yola salır.

Rus işğalı dövründə də Şuşa Qarabağın paytaxtı kimi öz aparıcı mövqeyini saxlayırdı. Ancaq Rusiyaya güclü Qarabağ xanlığı sərf etmirdi və çar məmurları Qarabağ xanlığını zəiflətmək məqsədilə özləri üçün sərfəli üsul tapdılar. Onlar Qarabağa, əsasən də Şuşa şəhərinə yersiz-yurdsuz, dilənçi halında olan erməniləri köçürdülər.

Şuşa XX əsrdə 3 dəfə erməni təcavüzünün qurbanı olub. 1905-1907-ci illərdə Şuşa şəhəri ermənilər tərəfindən hücuma məruz qalıb və yandırılıb. 1920-ci ildə şəhərin xeyli hissəsi daşnaklar tərəfindən dağıdılıb. Məlum işğal faktı isə 1992-ci ilin mayında oldu.

Sovet hakimiyyəti illərində ermənilər tərəfindən Şuşadakı tarixi-mədəniyyət abidələrimiz dağıdılmış, laqeydlik Şuşanın iqtisadi baxımdan tənəzzülü ilə nəticələnmişdi. Şuşa şəhərinin yenidən dirçəldilməsi yalnız 1969-cu ildə ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsindən sonra mümkün olmuşdu. Məhz ulu öndərimizin təşəbbüsü ilə şəhərin tarixi-memarlıq abidələrinin dağıdılmasının qarşısını almaq üçün tədbirlər görülmüş, 1977-ci ilin avqust ayında Azərbaycan SSR Nazirlər Soveti "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul etmişdi. Şəhərin sosial-iqtisadi və mədəni həyatının dirçəldilməsi üçün də xeyli iş görülmüş, ölkədə tar, kamança, ud, nağara və digər milli musiqi alətlərini istehsal edən yeganə Şərq Milli Musiqi Alətləri Fabriki istifadəyə verilmiş, Azərbaycan mədəniyyətinin və incəsənətinin korifeyləri olan Ü.Hacıbəylinin, Bülbülün, X.Natəvanın, M.M.Nəvvabın ev-muzeyləri təşkil olunmuş, 1982-ci ilin yanvarında Molla Pənah Vaqifin məqbərəsi açılmışdı.

Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə Azərbaycanın inkişafının qarşısını almağa, torpaq iddiası irəli sürməyə heç kim cəsarət etmirdi. Ulu öndərimizin XX əsrin 80-ci illərinin sonlarında hakimiyyətdən uzaqlaşdırılmasından sonra xalqımızın ağrı-acılarla dolu dövrü başlandı, Dağlıq Qarabağın işğalı planı hissə-hissə həyata keçirildi və Şuşa xəyanətin qurbanı olaraq 1992-ci il may ayının 8-də ermənilər tərəfindən işğal edildi.

... 1991-ci ildən Qarabağın dağlıq hissəsində baş verən hadisələrin gərginliyi get-gedə artırdı. Artıq ictimai-siyasi vəziyyət böyük fəlakətin yaxınlaşmasından xəbər verirdi. 1991-ci ilin iyun-dekabr aylarında erməni silahlı qüvvələrinin Xocavəndin Qaradağlı və Əskəran rayonunun Meşəli kəndlərinə hücumu nəticəsində 12 nəfər öldürülüb, 15 nəfər isə yaralanıb.

Şuşanın Xankəndidən keçən telefon-rabitə xətləri 1991-ci il noyabrın 24-də kəsilmişdi, şəhər və azərbaycanlılar yaşayan kəndlər tamamilə ətraf aləmdən təcrid olunmuşdu. Nəticədə, Xocalı və Şuşa mühasirədə qalmışdı. Dekabrın 2-nə keçən gecə, əsasən, rus hərbçilərinin idarə etdiyi zirehli texnika növləri, o cümlədən döyüş maşınları ilə təmin olunmuş Ermənistan ordusu Xankəndi tərəfdən Kərkicahan qəsəbəsinə hücum edərək oranı işğal edib. Şuşadan isə əlavə kömək göndərmək qeyri-mümkün idi. Çünki rus hərbçiləri Şuşadan Kərkicahana gedən yolu bağlamışdılar. Eyni zamanda Şuşa şəhərinin özü də hər gün erməni mövqelərindən intensiv top və raket atəşinə tutulurdu.

1992-ci ilin əvvəllərindən başlayaraq Ermənistan ordusu bir-birinin ardınca yuxarı Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal edib. Belə ki, fevral ayının 12-də Şuşanın Malıbəyli və Quşçular kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub.

1992-ci il aprelin ortalarından başlayaraq Şuşa yaxınlığında ermənilərin zirehli texnikası, saysız-hesabsız canlı qüvvəsi toplanırdı. Aprelin 24-də ermənilərin Şuşaya hücumu gözlənilirdi. Ermənilər aprelin 29-da Şuşa ətrafında "Hacı talası" və "Daşaşıran" adlanan ərazilərə güclü hücuma keçdilər. Bütün bu hücumlar ermənilərin artıq mühasirə vəziyyətində olan Şuşaya doğru irəliləməsindən xəbər verirdi. May ayının 7-dən 8-nə keçən gecə Şuşa dörd tərəfdən "qrad", "kristal" tipli raketlər, top, tank, PDM, ZDM, pulemyot və avtomatlarla güclü atəşə tutulub. Atəş səhərə qədər davam edib. Səhər tezdən ermənilər Xankəndi, Şuşikənd və Kərkicahan istiqamətlərindən piyadalarla hücuma keçiblər. Şəhər ayın 8-i axşama qədər müdafiə olunsa da, tank və zirehli maşınların köməyi ilə ermənilər əvvəl Şuşanı, sonra isə Kosalar və Şırlan kəndlərini ələ keçiriblər.

Beləliklə, ən müasir texnika hesabına Şuşa rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib, qanlı döyüşlərdə 195 azərbaycanlı şəhid olub, 165 nəfər yaralanıb, 58 nəfər isə girov götürülüb. İşğal nəticəsində Şuşanın 20 kitabxanası, 12 klubu, 6 mədəniyyət evi, 22 məktəbi, 7 uşaq bağçası yandırılıb və dağıdılıb. İşğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi. Son Tunc və İlk Dəmir dövrü abidəsi sayılan Şuşa daş qutu qəbirləri, Daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə aid Şuşa qalasının divarları, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, Molla Pənah Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, ikimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin evi, Realni məktəbin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və sair tarixi mədəniyyət nümunələri erməni işğalçıları tərəfindən talan edilib və dağıdılıb.

Bir vaxtlar "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, görkəmli mədəniyyət xadimləri yetişdirən, Azərbaycan tarixini özündə yaşadan Şuşa hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Şuşanın abidələr şəhəri olduğunu söyləyən ümummilli lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: ***"Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur".***

Bu gün işğalçı Ermənistanın qeyri-konstruktiv mövqedə olmasına baxmayaraq, qüdrətli Azərbaycan dövləti beynəlxalq təşkilatların, xüsusilə də münaqişəni dinc yolla nizama salmaq üçün vasitəçilik missiyasını öz üzərinə götürmüş ATƏT-in Minsk qrupunun sülhyaratma təkliflərinə hörmətlə yanaşaraq onun işində müntəzəm və əməli şəkildə iştirak edir. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən, Ermənisan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasını xüsusi diqqətdə saxlayan Azərbaycan Prezidenti cənab İlham Əliyev bu məsələdə yalnız respublikamızın milli və dövlətçilik maraqlarını daim üstün tutduğunu nümayiş etdirir. Dövlət başçısı bütün xarici səfərlərdə, eləcə də Bakıda keçirdiyi çoxsaylı görüşlərdə Ermənistanın hərbi təcavüzü məsələsini daim önə çəkərək Azərbaycan xalqının öz torpaqlarının işğalı ilə heç zaman razılaşmayacağını, ehtiyac yarandığı halda hərbi əməliyyatların başlanmasına qərar verəcəyini vurğulayıb. Azərbaycan Prezidenti ölkəmizin qəti mövqeyini, dəyişməz siyasətini belə ifadə edib: ***"Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".***

*Bəli, o gün uzaqda deyil. Biz tezliklə yenidən Şuşaya qayıdacağıq. Dönüşümüz isə çox möhtəşəm olacaq.*

**Rauf ƏLİYEV**

---

*Həmyerlimiz şair Muxtar Qasımzadə 1983-cü ildə qələmə aldığı bu şeirdə qədim Azərbaycan torpağı Şuşanın gözəlliklərini, əzəmətini tərənnüm edib. Mənfur ermənilər bu Şuşanı işğal edərək viran qoyublar. Amma xalqımız əmindir ki, qüdrətli Azərbaycan dövləti Şuşanı işğaldan azad edərək onun əzəmətini özünə qaytaracaq.*

### Bura Şuşadı...

Dağların yaxasında
Boy atıb, bitib evlər.
Sanki yallı gedəcək,
Əl-ələ tutub evlər.
Ucalıb pillə-pillə,
Zirvəyə çatıb evlər.
Bir-birinin dizinə
Baş qoyub, yatıb evlər.
Şirin-şirin nəğməyə,
Nağıla batıb evlər.
Qalıb qonağı oldum,
Doğmasıtək oxşadı,
Bura Şuşadı.

Bağçaları, bağları,
Şirinlik tabağıdır.
Uca dağlar qoynunda
Sanki cənnət bağıdır.
Qarabağın əlində
Gözəllik bayrağıdır.
Doğma Azərbaycanın
Musiqi ocağıdır.
Düşdüm ulu Qarqara
Gördüm ilham çağıdır.
İsa bulağı üstə
Mürsəl muğam başladı,
Bura Şuşadı.

Xəlfəlisi möcüzə,
Daşaltısı nağıldı.
Qol-boyun meşələri
Üfüqlərə sığaldı.
Dərəsinə söz atdım,
Hər daşdan səs sağıldı,
Məxmər yamaclarını
Gəzdim, huşum dağıldı.
"Xarı bülbül"ə qıyan
Paxıldan da paxıldı.
Çəməni xalı-xalça,
İlməsi tamaşadı,
Bura Şuşadı.

Xan qızı Natəvanın
Ayna bulağını gör.
"Xuraman qayası"nın
Pərişan tağını gör.
Boylan Cıdır düzünə
Vaqifin "dağını" gör.
Cabbarın eyvanını,
Xanın otağını gör.
Baş əy Nəvvab ruhuna,
Seyid ocağını gör.
Sənətkarı, sənəti
Əbədilik yaşadır,
Bura Şuşadı.

Abidələr diyarı,
Gözəllik qoruğudur.
Sanki qala divarı
Boynunda muncuğudur.
Ormanları Çənlibel,
Hər qaya Koroğludur.
Dərə döşü təbildi,
Gur sellər yumruğudur.
Havalanan qovaqlar
Niyazi çubuğudur,
Burda dahi Üzeyir
Zirvələrlə qoşadı,
Bura Şuşadı.

Çadır-çadır zanbağı
Bənzər gümüş xalına.
Çıraq-çıraq lalələr
Nur səpir camalına.
Dolanıb dörd yanından
Bahar girib qoluna.
Hüsnündən doymaq olmur,
Xoş Şuşanın halına.
"Maraldağın", "Qırxqızın"
Qovuşdum vüsalına.
Könlüm ovsuna düşüb
Sevgisiylə yaşadı,
Bura Şuşadı.

Xana-xana evləri
Ədalı göyçək kimi.
Gül-çiçəyin içinə
Qonub kəpənək kimi.
Şuşa təzə gəlindi –
Bəzənib mələk kimi.
Burun-burun zirvələr
Çiynində səhəng kimi.
Bəyaz-bəyaz buludlar
Başında örpək kimi,
Dönüb hayana baxdım
Toy evinə oxşadı,
Bura Şuşadı.

## Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş sərbəst güləş üzrə Naxçıvan Muxtar Respublika çempionatı başa çatmışdır

Mayın 7-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunan sərbəst güləş üzrə Naxçıvan Muxtar Respublika çempionatına yekun vurulmuşdur.

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən çempionatın dünən final görüşləri keçirilmişdir. 126 pəhləvanın çıxış etdiyi yarışda güləşçilər 15 çəki dərəcəsində mübarizə aparmışlar.

Turnirin son günü maraqlı final qarşılaşmaları ilə yadda qalmışdır. Sərbəst güləşçilərin mübarizəsində 42 kiloqramda Abbas Həsənov, 46 kiloqramda Murad Bağırlı, 50 kiloqramda Altay Zeynalov, 54 kiloqramda Murad Quliyev, 58 kiloqramda Sərdar Əliyev, 63 kiloqramda Zamin Quliyev, 69 kiloqramda Rauf Qurbanov, 76 kiloqramda Novruz Ağazadə, 85 kiloqramda İman Abdullayev və 100 kiloqramda Oruc İbrahimov bütün rəqiblərini üstələyərək birinci yerlərə layiq görülmüşlər.

Çempionatda yunan-Roma güləşçiləri də güclərini sınamışlar. 32 kiloqram çəki dərəcəsində keçirilən yarışın həlledici qarşılaşmasında Həsən Xudiyev Qurban Xudiyevi, 35 kiloqram çəki dərəcəsində Elis Əliyev Elman Əsgərovu, 42 kiloqram çəki dərəcəsində Elnur İsmayılov Adil Ələkbərovu, 50 kiloqram çəki dərəcəsində İsfəndiyar Məhərrəmli İsi Əliyevi və 58 kiloqram çəki dərəcəsində Afin Mustafayev İsmayıl Haqverdiyevi məğlub edərək birinciliyin baş mükafatını qazanmışlar.

Sonda mükafatlandırma mərasimi olmuşdur.

Qaliblərə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının mükafatları təqdim edilmişdir.

**"Şərq qapısı"**

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş futbol üzrə Naxçıvan Muxtar Respublika turnirinə dünən yekun vuruldu.*

## "Araz-Naxçıvan" futbol komandası muxtar respublika turnirinin qalibidir



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının birgə təşkil etdiyi turnirin final qarşılaşmasında "Araz-Naxçıvan" və "Dinamo" futbol komandaları üz-üzə gəldilər.

Naxçıvan Muxtar Respublika Stadionunda gərgin idman mübarizəsinə şahidlik edən azarkeşlər oyun ərzində 5 qol izlədilər. İlk hissəyə hücumlarla başlayan "Araz-Naxçıvan" Tağı Seyidovun dublu sayəsində rəqibi iki dəfə mərkəzə dəvət etdi. Maraqlısı odur ki, "qırmızı-ağlar" oyunun 70 dəqiqəyə yaxın müddətini azlıqda keçirdilər. Sərt oyun nəticəsində hakim Elşad Əliyevi meydandan kənarlaşdırdı. Bu, görüşdə son qırmızı vərəqə olmadı. Belə ki, referi ikinci hissədə də hər iki komandadan bir futbolçunu meydandan çıxardı. Lakin ruhdan düşməyən komandalar ikinci hissədə daha baxımlı oyun sərgilədilər. Əvvəlcə "Araz-Naxçıvan"ın heyətində Əsgər Əsgərov hesab arasındakı fərqi 3 topa çatdırdı. "Dinamo" bu qollardan birinin əvəzini çıxsa da, sona 10 dəqiqə qalmış qapısında daha bir qol gördü və meydanı 1:4 hesablı məğlubiyyətlə tərk etdi.

Bununla, "Araz-Naxçıvan" komandası ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş futbol üzrə Naxçıvan Muxtar Respublika turnirinin qalibi oldu.

Mükafatlandırma mərasimində çıxış edən Gənclər və İdman naziri Azad Cabbarov qeyd etdi ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi idman siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, Azərbaycan dünyanın ən nüfuzlu idman yarışlarına ev sahibliyi edir, idmançılarımızın olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında qazandıqları medalların sayı ilbəil artır. Naxçıvan Muxtar Respublikasında da idman qayğı ilə əhatə olunub. Burada olimpiya-idman kompleksləri, üzgüçülük, şahmat, stend və sportinq atıcılıq mərkəzləri, stadionlar, şahmat və uşaq-gənclər idman məktəbləri yaradılıb. "Bu gün futbol üzrə muxtar respublika turnirində gənc futbolçuların sərgilədiyi baxımlı oyun bizdə xoş təəssürat yaratdı", – deyən nazir turnirdə iştirak edən bütün futbolçuları təbrik etdi.

Sonra turnirin mükafatlandırma mərasimi oldu. Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının sədri Səbuhi Şahverdiyev turnirin qalibi olan "Araz-Naxçıvan" futbol komandasına kuboku təqdim etdi.

## Naxçıvan beynəlxalq yarışların keçirilməsində böyük təcrübəyə malik olduğunu bir daha dünyaya nümayiş etdirdi

*Artıq yeddi gündür ki, Naxçıvan mötəbər bir şahmat bayramına, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə keçirilən "Naxçıvan–2015" Beynəlxalq Şahmat Festivalına ev sahibliyi edir. Festival iştirakçıları onlara yaradılan şəraitdən razılıqla danışırlar. Naxçıvana heyran olduqlarını bildirən festival iştirakçıları buradan xoş təəssüratlarla ayrılacaqlar. Festivalın gedişində tanınmış hakim və şahmatçılarla həmsöhbət olduq:*

***Namiq İSMAYILOV – Beynəlxalq dərəcəli hakim:***



– Blokadada olan muxtar respublikanın belə bir şahmat bayramına ev sahibliyi etməsi regionun sürətli inkişafından, şahmat idman növünə göstərilən yüksək dövlət qayğısından xəbər verir. Qeyd edim ki, yüksək reytinqli şahmatçıların iştirakına görə builki festival xüsusilə fərqlənir. "A" qrupunda yüksək reytinqli şahmatçılar yarışırlar. Sözsüz ki, belə yarışlarda təcrübə öz sözünü deyir.

Muxtar respublikanın bu qəbildən olan yarışların keçirilməsi sahəsində potensialı barədə onu deyə bilərəm ki, hələ 2003-cü ildə Naxçıvanda gənc şahmatçıların dünya çempionatı keçirilmişdi. Ötən illərdə keçirilən beynəlxalq şahmat festivalları muxtar respublikanın beynəlxalq yarışların keçirilməsində hansı imkanlara malik olduğunu bir daha dünyaya nümayiş etdirdi. Festivallar yüksək səviyyədə təşkil edilmişdi. Yarışlar barədə beynəlxalq şahmat aləmində çox yaxşı fikir yaranmışdı və dünya çempionatları içərisində Naxçıvanda keçirilən bu yarışlar ən yaxşılardan biri sayılmışdı. Sevindirici haldır ki, Naxçıvan keçirilən bu festivalların yüksək səviyyədə təşkili ilə dünyanın məşhur, tanınmış şahmatçılarını cəlb edə bildi. Dünyanın müxtəlif guşələrindən gəlmiş şahmatçıların yüksək səviyyədə qarşılanması qonaqlarda xoş təəssüratlar yaradıb. Onlar bir daha görürlər ki, Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyevə nə qədər dərin hörmət və ehtiram var, dahi rəhbərin xatirəsinə həsr edilən festivalda hər bir kiçik təfərrüata xüsusi diqqət yetirilib, təşkilatçılıq zərgər dəqiqliyi ilə aparılıb. Məncə, bu, blokadada olan Naxçıvan üçün böyük nailiyyətdir və festivalın əhəmiyyətini son dərəcə artırır.

***Doostkam PİPUİAN – İran İslam Respublikası:*** – Azərbaycanlı



şahmatçılarla birlikdə müxtəlif beynəlxalq yarışlarda iştirak etmişəm və həmişə onlardan alicənablıq, nəciblik görmüşəm. Bu festivala dəvət alanda çox sevindim. Ona görə sevindim ki, köhnə dostlarımı görmək, onlarla ünsiyyətdə olmaq imkanı əldə edəcəkdim. Naxçıvanda müasir Azərbaycan haqqında xoş təəssüratlarım daha da artdı. Qədim ölkənizin bu diyarı festivalla dünyanın müxtəlif ölkələrindən gələn insanları bir araya toplayıb. Bu, məncə, böyük nailiyyətdir. Bir də ona görə məmnunam ki, Naxçıvan bizi böyük qonaqpərvərliklə qarşıladı. Artıq neçə gündür, yarışlarda iştirak edirəm. Görürəm ki, şahmatçılara xüsusi diqqət yetirilir. Sözsüz ki, ürəkaçan mühit, yarışlarda müşahidə olunan yüksək təşkilatçılıq oyununa da təsir edir. Çalışacağam, böyük rəhbərinizin xatirəsinə həsr olunmuş festivalın qalibi olum. Çünki bu, mənim üçün, hər şeydən əvvəl, böyük şərəfdir.

***Cankut EMİROĞLU – Türkiyə Respublikası:***



– Bu gün Azərbaycan yığması dünya şahmat arenasında öz sözünü qətiyyətlə deməkdədir. İdmançılarınız beynəlxalq yarışlarda böyük uğurlar qazanır, Azərbaycanı idman ölkəsi kimi bütün dünyada tanıdırlar. Bu festivalda dünyanın tanınmış şahmat ustaları ilə yanaşı iştirak etdiyimə görə böyük məmnunluq hissi keçirirəm. Yarış haqda deyim ki, ilk turlar çox gərgin mübarizə şəraitində keçib; hər turdan sonra qələbə uğrunda mübarizə son turlara doğru daha da çətinləşir. Bu anlamda şahmat festivalı mənim üçün təcrübə qazanmaq baxımından olduqca əhəmiyyətlidir. Çünki burada dünyanın müxtəlif ölkələrindən, eləcə də Azərbaycandan təcrübəli şahmatçılar yarışır, inamlı oyunlar nümayiş etdirirlər.

Mən İzmir şəhərindənəm. Bildiyiniz kimi, İzmir Türkiyənin ən gözəl şəhərlərindən biridir. Burada olanda gördüm ki, Naxçıvan şəhəri də öz gözəlliyi, səliqə-sahmanı, müasirliyi ilə İzmirdən heç də geridə qalmır. Onu da deyim ki, oyunlarda rəqib olsaq da, Azərbaycan, eləcə də Naxçıvan şahmatçıları mənim üçün qardaş ölkənin vətəndaşlarıdır və artıq bu şahmatçıların bir neçəsi ilə tanış olmuşam. İnanıram ki, bu festival hər bir şahmatçı üçün yeni dostluq körpülərinin yaradılmasında müstəsna rol oynayacaq.

**Səbuhi HÜSEYNOV**

## Obliqat qruplarında yoluxucu xəstəliklərə görə qan analizlərinə start verilib

*Muxtar respublikamızda yoluxucu xəstəliklərlə mübarizə işi səhiyyənin prioritet sahələrindən biridir. Əhalinin hər bir təbəqəsinin xəstələnmə və ölüm səviyyəsinin azaldılmasına yönəldilmiş immunprofilaktikaya dair çox vacib proqramların həyata keçirilməsi də bunu təsdiq edir. Nəticədə, bir sıra xəstəliklərin yayılma səviyyəsi xeyli azalıb, bir neçə infeksion patologiya isə tam ləğv olunub.*

Hazırda bu sahədə tədbirlər uğurla davam etdirilir. Muxtar respublikanın səhiyyə müəssisələrində çalışan tibb işçiləri həm obliqat, həm də risk qrupuna (xüsusilə ginekologiya, stomatologiya, cərrahiyyə, hemodializ, laboratoriya şöbələrinin işçiləri) daxil olduqları üçün onların qanla keçə bilən yoluxucu xəstəliklərlə, o cümlədən B və C hepatit virusuna yoluxma ehtimalı daha çoxdur. Odur ki, bu təhlükəli virus infeksiyası ilə qarşılaşmamaq üçün tibb işçiləri ildə iki dəfə qan nümunələri götürülərək müayinəyə cəlb olunurlar.

Bu tədbir əvvəllər Naxçıvan Muxtar Respublikası QİÇS-lə Mübarizə Mərkəzində keçirildiyindən rayonlarda obliqat qrupuna daxil olan tibb işçilərinin vaxt itkisinə səbəb olur, göndərilən qan nümunələrində yanlışlıqlara yol verilir, nəticələr tibbi müayinə kartlarında lazımi formada əksini tapmırdı. Bu problemi aradan qaldırmaq üçün QİÇS-lə Mübarizə Mərkəzi belə müayinələri bilavasitə obliqat qruplarının fəaliyyət göstərdikləri rayonlarda keçirməyə başlayıb. İlk tədbir Culfa Rayon Mərkəzi Xəstəxanasında keçirilib, mərkəzi xəstəxananın, həkim ambulatoriyalarının və feldşer-mama məntəqələrinin 132 tibb işçisindən qan nümunələri götürülüb. QİÇS-lə Mübarizə Mərkəzinin laboratoriyasında həmin qan nümunələrinin HİV, hepatit B, C və qanla keçən digər xəstəliklərə görə analiz olunması üçün seroloji diaqnostikası aparılacaq, nəticələr tibbi müayinə kartlarında öz əksini tapacaqdır.

Rayonlarda obliqat qrupuna daxil olan gözəllik salonu işçiləri, otel, mehmanxana xidmətçiləri, bərbərlər də aksiyaya cəlb edilərək qan müayinələri aparılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Beynəlxalq şahmat festivalının 6-cı turu Naxçıvan şahmatçıları üçün uğurlu olub

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalının 6-cı turu dünən keçirilən oyunlarla yekunlaşıb.*



"A" turnirində mübarizə aparan Naxçıvanın zəka sahiblərindən FİDE ustası Pərviz Qasımov bu turda gürcüstanlı qrossmeyster Nino Xomeriki ilə qarşılaşıb. Aktivində 2 xal olan şahmatçımız bu turda da məğlubiyyətlə barışmalı olub. Digər həmyerlimiz, FİDE ustası Ürfan Sevdimalıyev isə iranlı şahmatçı Morteza Əsgəri ilə ağ-qara taxtada üz-üzə gəlib, Pərvizdən fərqli olaraq, Ürfan bu turu qələbə ilə başa vurub.

"A" turnirinin lideri gürcüstanlı qrossmeyster Levan Pantsulaya bu turda azərbaycanlı qrossmeyster Eltac Səfərli ilə qarşılaşıb. 5 oyundan maksimum xal toplayan Levan Pantsulaya bu görüşdə ilk dəfə məğlub olub. Turun ən maraqlı görüşü isə azərbaycanlı qrossmeyster Ülvi Bacarani ilə rusiyalı qrossmeyster Aleksandr Xalifman dueli olub. 5 oyundan 4 xal toplayan bu şahmatçıların görüşündən qalib ayrılan olmayıb.

Hazırda "A" turnirinin iki lideri var. 5 xal toplayan gürcüstanlı qrossmeyster Levan Pantsulaya və azərbaycanlı qrossmeyster Eltac Səfərli ilk iki pillədə qərarlaşıblar. Digər 8 pillədə qərarlaşan şahmatçıların aktivində isə 4,5 xal var.

"B" turnirinin lideri iranlı şahmatçı Behranq Kabudi 6-cı turda azərbaycanlı şahmatçı Rəşad Zeynallı ilə qarşılaşıb və məğlub olub. Rəşad kimi, Elnur Əliyev də iranlı zəka sahibi Babək Sedgidən üstün olub. Bu turda turnir cədvəlinin üst pillələrində qərarlaşan azərbaycanlı şahmatçılardan Məhəmməd Muradlı Elvin Bayramova, Vəli Zeynalzadə isə Toğrul Həsənzadəyə qarşı mübarizə aparıb. Maraqlısı odur ki, hər iki görüş heç-heçə ilə başa çatıb. Alınan bu nəticələrdən sonra Rəşad Zeynallı 5,5 xalla turnir cədvəlinə liderlik edir. Digər 6 pillədə qərarlaşan şahmatçıların isə xalları eynidir – 5 xal.

"Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalının "C" turnirinin 6-cı turunda vahid lider müəyyənləşib. Belə ki, bu tura kimi itkisiz irəliləyən iki zəka sahibi – Mətin Mürsəlli və Ləman Hacıyeva bu turda üz-üzə gəliblər. Daha təcrübəli olan Mətin Mürsəlli rəqibinə qalib gəlib. Naxçıvan şahmat məktəbinin yetirməsi Kənan Şərifzadə bu turda Şabran rayonunun şahmatçısı Zamiq Xudiyevdən üstün olub. Digər həmyerlimiz Siyavuş Bağırov isə Nicat Fətəlizadəni mat edib. "C" turnirinin 6-cı turunun nəticələrinə əsasən, Mətin Mürsəlli maksimum xalla liderliyini davam etdirir. Naxçıvan şahmatçıları Kənan Şərifzadə və Siyavuş Bağırov isə liderdən yalnız bir xal geri qalırlar.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 369